# BAYRAMOV SOLTANAĞA NƏHMƏT OĞLU



Soltanağa Bayramov 17 oktyabr 1936-cı ildə Lənkəran rayonunun Şürük kəndində anadan olmuşdur. Orta təhsilini Astara rayonunda almışdır. 1957-ci ildə Lənkəran Tibb Məktəbini bitirərək, təyinatla hərbi hospitalda əmək fəaliyyətinə başlamışdır. 1967-ci ildə fizio-terapevt, sonra isə rentgenoloq-texnik vəzifəsində işləmişdir. Soltanağa Bayramov hospitalda çalışdığı müddət ərzində "Səhiyyə əlaçısı" adını qazanmışdı. Milli Ordumuzun neçə-neçə əsgərinin sağalıb fəal həyata qayıtmasında Soltanağa Bayramovun böyük əməyi olmuşdur. 1990-cü ildə xalqımız çətin sınaqlarla üz-üzə durmuşdu. "Talış Muğan Respublikası" yaratmaq xülyası ilə yaşayan Əlikram Hümbətov öz quldur dəstəsi ilə Azərbaycanın cənub bölgələrində ağır cinayətlər törədirdi. Azərbaycanın mərd oğulları bütün bu çətinliklərə sinə gərərək, cinayətkar dəstələri məhv etdi. 23 avqust 1993-cü ildə quldurlar hərbi hospitala hücum edərkən Soltanağa Bayramov onlara ciddi müqavimət göstərdi və faciəli surətdə həlak oldu. Lənkəran şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Dörd övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı fərmanı ilə Bayramov Soltanağa Nəhmət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Lənkəran şəhərindəki küçələrdən birinə onun adı verilmiş və büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.